**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№387/1** **14 may 2026-cı il**

**"Auditin yeni idarəetmə sistemi" adlı konsepsiya barədə**

"Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli Fərmanından irəli gələn vəzifələri rəhbər tutaraq, Palata sədrinin 2026-cı il 17 aprel tarixli 10-1/3-3-16/2026 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 4-cü "Auditor xidmətlərinin sifarişi, müqavilələrin bağlanması və hesabatların təqdim edilməsi üzrə elektron platformanın yaradılması", 6-cı "Auditorlar Palatasında dövlət xidmətlərində fiziki təmasın minimuma endirilməsi ilə bağlı tədbirlərin görülməsi", 7-ci "Auditorların şəxsi kabineti sisteminin funksionallığının genişləndirilməsi və audit proseslərinin elektron formada idarə edilməsinin təmin edilməsi", 8-ci "Auditor hesabatlarının, rəy və sənədlərin elektron imza ilə təqdim edilməsi mexanizminin tətbiq edilməsi", 9-cu "Auditor fəaliyyətində 'kağızsız audit' modelinə keçidin təmin edilməsi", 10-cu "Audit sənədlərinin təhlükəsiz elektron arxiv sisteminin yaradılması", 11-ci "Auditorlar Palatasında daxili idarəetmə proseslərinin tam rəqəmsallaşdırılması və 'kağızsız hökumət'ə keçid istiqamətində işlərin görülməsi" və 13-cü "Auditorlar Palatası tərəfindən göstərilən xidmətlərin süni intellekt əsaslı təşkil edilməsi" bəndlərinin icrası, eləcə də müasir dövrün çağırışları nəzərə alınaraq, Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov, M.Osmanova və B.Orucov) tərəfindən "Auditorun şəxsi kabineti" sisteminin süni intellekt əsaslı versiyasının yaradılması məqsədilə hazırlanmış "Auditin yeni idarəetmə sistemi" adlı konsepsiyanın layihəsini və onun təqdimatını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorun şəxsi kabineti" sisteminin süni intellekt əsaslı versiyasının yaradılması məqsədilə hazırlanmış "Auditin yeni idarəetmə sistemi" adlı konsepsiyanın layihəsi bəyənilsin (əlavə olunur).
2. Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, iki ay müddətində "Auditin yeni idarəetmə sistemi"nin tətbiqi üzrə konseptual fikirlərin reallaşdırılması məqsədilə detallı texniki tapşırıq və tətbiq ardıcıllığı ilə əlaqədar tədbirlər planını hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsin.
3. Bu qərarın mətni və "Auditin yeni idarəetmə sistemi" adlı konsepsiya barədə təqdimat Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**